***Türkdilli ölkələrin beynəlxalq mədəniyyət təşkilatı olan TÜRKSOY yarandığı vaxtdan Azərbaycanla sıx əməkdaşlıq edir. TÜRKSOY ölkəmizlə bağlı bir çox layihələr həyata keçirib. Bu layihələrdə Azərbaycan mədəniyyətinin görkəmli xadimlərinin dünyada tanıdılmasına əhəmiyyətli töhfələr verib. Təşkilat İslam aləmi ilə əlaqədar Bakıda təşkil edilən qlobal əhəmiyyətli bir sıra mühüm mədəni forumların iştirakçısı olmuşdur. 2009-cu ildə Bakı "İslam mədəniyyəti paytaxtı" ilinin açılış tədbirlərində TÜRKSOY-un rəhbərliyi iştirak etmişdir.***

# TÜRKSOY Azərbaycanın haqlı mövqeyini müdafiə edir

2017-ci ildə isə "İslam Həmrəyliyi ili"ndə Qafqaz Müsəlmanları İdarəsi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun birgə təşkilatçılığı ilə aprelin 12-də Bakıda keçirilmiş "İslam həmrəyliyi: dini və mədəni müxtəlifliyin harmoniyası" mövzusunda beynəlxalq konfransda TÜRKSOY nümayəndə heyəti və qurumun baş katibi , Qazaxıstanın görkəmli mədəniyyət xadimi, professor Düsen Kaseinov çıxış edərək Azərbaycanın həm türk, həm də İslam mədəniyyətinə əvəzsiz töhfələr verdiyini vurğulamışdır.

D.Kaseinov dəfələrlə Azərbaycanda olmuş, Prezident İlham Əliyevlə və Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə görüşmüşdür.

Azərbaycan öz torpaqlarını azad etmək uğrunda Ermənistanla apardığı müharibə dövründə TÜRKSOY yenə Azərbaycanın yanındadır. Bunu təşkilatın baş katibi Düsen Kaseinovun bəyanatlarından və cənab Prezident İlham Əliyevə məktubundan da görmək olar.

Baş katib son bəyanatında Azərbaycanın işğal olunmuş ərazilərində artan gərginlik və silahlı qarşıdurmalar zamanı mülki şəxslərin həlak olmasından dərin kədər hissi keçirdiyini ifadə edib. O, problemin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində, xüsusilə də BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə qəbul edilmiş və Azərbaycanın ərazi bütövlüyünün bərpasını nəzərdə tutan məlum dörd qətnamə üzrə həll olunmasının vacibliyini vurğulayıb.

Baş katib bildirib ki, qardaş Azərbaycan xalqına qarşı təcavüzkarlıq aktlarından dərin kədər hissi duyur, münaqişənin tezliklə beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həll olunmasını, haqq-ədalətin öz yerini tapmasını, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsini arzulayır.

O qeyd edib ki, Azərbaycanın tanınmış mədəniyyət və incəsənət xadimlərinin ölkənin bu çətin günlərində öz dövlətlərinin yanında olaraq öz xalqına dəstək vermələrini, Vətənə sonsuz sevgilərini, ölkənin gələcək nəsilləri üçün necə narahatlıq keçirdiklərini diqqətlə izləyirəm. Bir çoxu ilə uzun illərdir birlikdə işlədiyim və dostluq etdiyim bu ziyalıların məsələyə göstərdikləri həssaslığa və söylədikləri fikirlərə mən də səmimi qəlbdən qoşuluram. Mədəniyyət xadimi olaraq Azərbaycan xalqının ağrı-acısını dərindən hiss edir, əzəli Azərbaycan torpaqlarının tezliklə sülhə, əmin-amanlığa və rifaha yenidən qovuşmasını diləyirəm.

Tarixi ədalət və beynəlxalq hüquq Azərbaycanın tərəfindədir. Əminəm ki, Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan xalqı bu çətinliklərin də öhdəsindən layiqincə gələcək, hər bir azərbaycanlı üçün müqəddəs olan bu tarixi torpaqlarda incəsənətin, mədəniyyətin və həyatın yenidən canlanmasını bütün türk dünyası ilə birlikdə müşahidə edəcəyik.

***Hazırladı:***
***M.MÜKƏRRƏMOĞLU, "Xalq qəzeti"***

Xalq qəzeti 2020.-15 oktyabr.- S.4.